# MƏNƏVI INKIŞAF

<"xml encoding="UTF-8?>

## MƏNƏVI INKIŞAF

Qeyd olunan yüksək və dəyərli hədəflərə çatmaq üçün gərək bəşərin tağutçuların hakimiyyəti .dövründə ki, həyatına qısa bir nəzər salaq

İnsan yer üzündə yarandığı dövrdən etibarən ilahi höccətin hakimiyyətindən uzaqda qaldığına görə onun mə`nəviyyət və mə`nəvi dəyərləri acınacaqlı günlərə qalmışdır! Məgər bəşəriyyət haqq yolu itirməmiş, daim mə`nəvi cəhətdən uçurumlara doğru qədəm götürməmişdirmi?! Özünün nəfsani və heyvani meyllərinə tabe olmaqla, şeytani vəsvəsələrə düçar olmaqla öz həyatının gözəlliklərini və yaxşılıqlarını biri digərindən sonra unutmamışdırmı və öz əlləri ilə onu !?şəhvət qəbiristanlığında dəfn etməmişdirmi

Paklıq, pakizəlik, sədaqət, düzlük, qarşılıqlı həmkarlıq, güzəşt, candan keçmə, ehsan kimi dəyərlər öz yerini həva pərəstliyə, şəhvətçiliyə, yalana, fırıldağa, yalnız öz mənafeyini güdməyə, yaxşı maqama çatmağa, xəyanət, cinayət, hərislik və sair kimi yaramaz şeylərə vermişdir. Bir sözlə desək, bəşərin həyatında mə`nəviyyət özünün son nəfəslərini çəkməkdədir, dünyanın əksər yerlərində və özünü insana oxşadanların əksəriyyətinin yanında ondan heç bir əsər-.əlamət qalmamışdır

İlahi zəxirələrin sonuncusunun hökuməti insan vücudunun bu yönünü qurmaq üçün əsasılı tədbir görəcək, artıq ölümcül vəziyyətə düşmüş bu yönünü dirçəltmək üçün sə`y göstərəcəkdir ki, həqiqi həyatın şirinliyini məlaikələrin səcdə etdiyi insanlara dadızdırsın, hamı üçün xatırlatsın ki, əvvəldən onların belə bir pak-pakizə həyatdan bəhrələnmələri, yaxşılıqların və paklıqların :ətrini cani dildən hiss etsinlər

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُم...

Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna, sizi dirildən bir şeyə çağırdıqları zaman, müsbət» [cavab verin.»[1

Buna əsasən, insanları heyvandan seçib ayıran mə`nəvi həyat insan vücudunun əsl və ümdə

hissəsini təşkil edir. Çünki o, yalnız belə bir həyatdan bəhrələndikdə insan adlandırılır və həmin .həyat da onu həyatı insana bəxş edən Allaha çatdırır, Allah dərgahına yaxınlıq məqamına yetirir

Buna görə də Allahın vəlisinin hakimiyyəti dövranında insanın vücudunun bu yönünə daha çox diqqət yetiriləcək, həyatın bütün yönlərində insani dəyərlərə rövnəq veriləcək, səfa-səmimiyyət, fədakarlıq, vəfadarlıq, düzlük «yaxşılıqlar» ünvanı altında qeyd olunan hər bir şey dünyanı əhatə .edəcəkdir

Əlbəttə, bu böyük hədəfə, parlaq gələcəyə çatmaq üçün çox dəqiq və ətraflı proqramlara ehtiyac .duyulur ki, gələn bölmələrdə onu qeyd edəcəyik

---

Ənfal surəsi, 25 [1]